AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına dair Qısa İcmal

Dekabr 2022

# M ü n d ə r i c a t


FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı ........ 2
Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal ........ 3
Rusiya buğdasının ixrac qiyməti ........ 6
Arpanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 7
Düyünün dünya bazarı qiymətinə dair qısa icmal ........ 8
Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal ........ 9
Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal ........ 10
Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal ........ 12
Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 13
Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal ........ 14
Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal ........ 15
Çayın dünya bazarı qiymətinə dair qısa icmal ........ 16
Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal ........ 17
Soyanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 18
Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 19
Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ........ 20
Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ........ 21
Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 22
Südün dünya bazarı qiymətinə dair qısa icmal ........ 23
Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal ........ 25

# FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

## (FAO-nun 6 yanvar 2023-cü il tarixli açıqlaması)

***FAO-nun Ərzaq Qiymətləri İndeksində 2022-ci ildə orta hesabla 143.7 bənd təşkil edib ki, bu da keçən ilin orta qiymətinə nisbətən 14.3% və ya 18.0 bənd çoxdur.***

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2022-ci ilin dekabr ayında orta hesabla 132.4 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.9% (2.6 bənd), ötən ilin dekabr ayı ilə müqayisədə isə 1.0% (1.3 bənd) **azdır**.
- **Ət Məhsullarının Qiymət İndeksi** dekabr ayında orta hesabla 113.8 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.2% (1.4 bənd) az, ötən ilin dekabr ayı ilə müqayisədə isə 2.5% (2.8 bənd) **çoxdur.**
- **Süd Məhsullarının Qiymət İndeksi** dekabr ayında orta hesabla 139.1 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.1% (1.5 bənd), ötən ilin dekabr ayı ilə müqayisədə isə 7.9% (10.1 bənd) **çoxdur**.
- **Taxıl Qiyməti İndeksi** dekabr ayında orta hesabla 147.3 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.9% (2.9 bənd) az, ötən ilin dekabr ayı ilə müqayisədə isə 4.8% (6.8 bənd) **çoxdur**.
- **Bitki Yağlarının Qiymət İndeksi** dekabr ayında orta hesabla 144.4 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 6.7% (10.3 bənd), ötən ilin dekabr ayı ilə müqayisədə isə 19.1% (34.1 bənd) **azdır**.
- **Şəkər Məhsullarının Qiymət İndeksi** dekabr ayında orta hesabla 117.2 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 2.4% (2.8 bənd), ötən ilin dekabr ayı ilə müqayisədə isə 0.6% (0.7 bənd) **çoxdur.**

**FAO-nun ərzaq qiymətləri indeksi, məhsullar üzrə, aylıq (2014-2016-cı illər 100 götürülüb)**




**FAO-nun ərzaq qiymətləri indeksi, illik (2014-2016-cı illər 100 götürülüb)**




**Mənbə:** http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/

# Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

***(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 12 yanvar 2023-cü il tarixli hesabatı əsasında hazırlanıb)***

- 2022/2023-cü məhsul ili üzrə qlobal buğda istehsalının 781.3 milyon ton olacağı proqnozlaşdırılır.

**Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton**

| | | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|
| **TƏKLİF** | İlin əvvəlinə qalıq | 298 | 290 | 277 |
| | İstehsal | 775 | 779 | 781 |
| | **Cəmi təklif** | 1073 | 1069 | 1058 |
| **TİCARƏT** | İdxal / İxrac | 203 | 203 | 212 |
| **TƏLƏB** | Ərzaq və toxum | 625 | 632 | 634 |
| | Yem | 158 | 160 | 155 |
| | Cəmi istifadə | 783 | 792 | 790 |
| **İLİN SONUNA QALIQ** | | 290 | 277 | 268 |
| ***DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ*** | | **37%** | **35%** | **34%** |

**Mənbə:** https://www.uswheat.org/market-information/supply-and-demand/

- Bununla belə, məcmu təklifin həcm göstəricisinin 2021/2022-ci məhsul ili ilə müqayisədə 11 milyon ton azalaraq 1058 milyon ton olacağı proqnozlaşdırılır. Bunun başlıca səbəbi ötən mövsümə nəzərən cari mövsümdə ilin əvvəlinə olan qalıq həcminin 4.5% azalaraq 277 milyon tona düşməsidir.

- Qlobal buğda ehtiyatları həcminin 2021/2022-ci məhsul ili ilə də müqayisədə 2022/2023-cü məhsul ilində 3.2% azalacağı və 268 milyon tona düşəcəyi gözlənilir. Nəticədə dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi 34% səviyyəsində olacaq.

- Ötən mövsümə nəzərən cari mövsümdə əsas buğda ixracatçısı olan ölkələrdə ilin əvvəlinə olan qalıq həcminin 1 ton artaraq 60 milyon ton, istehsal həcminin isə 2021/2022-ci məhsul ili ilə müqayisədə 5 milyon ton çox (389 milyon ton) olacağı gözlənilir. Bununla da əsas ixracatçı ölkələr üzrə ümumi təklif səviyyəsi 6 milyon ton çox (449 milyon ton) olacaq.

- Dünya buğda ticarətinin 2022/2023-cü məhsul ilində əvvəlki məhsul ili ilə müqayisədə 9 milyon ton artaraq 212 milyon ton olacağı proqnozlaşdırılır.
- Çində ilin əvvəlinə olan qalıq həcminin 2021/2022-ci məhsul ili ilə müqayisədə 2 milyon ton azalaraq 142 milyon ton olacağı gözlənilir.
- Qara dəniz regionu ölkələri qrupu üzrə əvvəlki məhsul ilinə nəzərən 2022/2023-cü məhsul ilində istehsal həcminin 4.7% artaraq 140.3 milyon ton, ixracın isə 7.6% artaraq 66.7 milyon ton olacağı proqnozlaşdırılır.

**Qara dəniz ölkələri qrupu üzrə icmal**




**Qara dəniz ölkələri qrupu üzrə ixrac**




**Mənbə:** [www.uswheat.org](www.uswheat.org)

**Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.**

➢ Dünya birjalarında 2022-ci ilin avqust ayından etibarən buğdanın qiymətində başlayan artım trendi noyabr ayında yenidən azalmışdır. Dekabr ayında da buğdanın qiymətindəki azalma davam edərək əvvəlki aya nisbətən 6.2% azalaraq 315 ABŞ dolları/ton səviyyəsində qərarlaşmışdır.







Mənbə: https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international

# Rusiya buğdasının ixrac qiyməti

➢ **Rusiya buğdasının ixrac qiymətindəki azalma dekabr ayında da davam etmişdir. Dekabr ayında buğdanın qiyməti əvvəlki aya nisbətən 1.3% azalaraq 313 ABŞ dolları/ton olmuşdur.**







**Mənbə:** [https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international](https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international)

# Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin dekabr ayında arpanın 1 tonunun qiyməti əvvəlki aya nisbətən Avropa bazarında 2.1% azalaraq 302 ABŞ dolları, Qara dəniz bazarında isə 3.6% azalaraq 273 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/home*

# Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Dekabr ayında düyünün 1 tonunun dünya bazarı qiyməti əvvəlki aya nisbətən 6.9% artaraq 446 ABŞ dolları səviyyəsinə yüksəlmişdir.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

# Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Qarğıdalının dünya bazarı qiymətində noyabr ayından başlayan azalma dekabr ayında da davam etmişdir. Bu ayda qarğıdalının qiyməti əvvəlki aya nisbətən 5.8% azalaraq 302 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

➢ **Dünya üzrə pambıq balansına əsasən, 2022/23-cü məhsul ilində pambıq istehsalının 2021/22-ci məhsul ili ilə müqayisədə 0.4% azalaraq 25.1 milyon ton olacağı proqnozlaşdırılır.**

**Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*), milyon ton**

| | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 Dekabr | 2022/2023 Yanvar |
|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 18.0 | 18.0 | 21.4 | 18.9 | 18.6 | 18.6 |
| **İstehsal** | 25.8 | 26.2 | 24.3 | 25.2 | 25.2 | 25.1 |
| **Təklif** | 43.8 | 44.1 | 45.7 | 44.1 | 43.8 | 43.7 |
| **Fabrik istehlakı** | 26.1 | 22.7 | 26.8 | 25.6 | 24.3 | 24.1 |
| ***İlin sonuna qalıq*** | 18.0 | 21.4 | 18.9 | 18.6 | 19.5 | 19.6 |
| ***Qalıq/İstehlak nisbəti*** | *68.9%* | *94.6%* | *70.4%* | *72.6%* | *80.2%* | *81.1%* |

**Cədvəl 2. Çinin pambıq balansı, milyon ton**

| | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 Yanvar |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 7.8 | 7.9 | 8.2 | 8.1 |
| **İstehsal** | 6.0 | 6.4 | 5.8 | 6.1 |
| **İdxal** | 1.6 | 2.8 | 1.7 | 1.7 |
| **Təklif** | 15.3 | 17.2 | 15.8 | 15.9 |
| **Fabrik istehlakı** | 7.4 | 8.9 | 7.6 | 7.7 |
| ***İlin sonuna qalıq*** | 7.9 | 8.2 | 8.1 | 8.2 |
| ***İstehlak*** | 7.4 | 8.9 | 7.6 | 7.8 |
| ***Qalıq/İstehlak nisbəti*** | *106.4%* | *92.2%* | *106.2%* | *105.1%* |

**Cədvəl 3. Çin istisna olmaqla dünya pambıq balansı, milyon ton**

| | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 Dekabr |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 10.2 | 13.5 | 10.7 | 10.5 |
| **İstehsal** | 20.2 | 17.8 | 19.4 | 19.0 |
| **Təklif** | 30.4 | 31.3 | 30.0 | 29.5 |
| **Fabrik istehlakı** | 15.3 | 17.9 | 18.0 | 16.4 |
| **Çinə ixrac** | 1.6 | 2.8 | 1.7 | 1.7 |
| ***İstehlak*** | 16.8 | 20.7 | 19.7 | 18.1 |
| ***İlin sonuna qalıq*** | 13.5 | 10.7 | 10.5 | 11.4 |
| ***Qalıq/İstehlak nisbəti*** | *80.4%* | *51.5%* | *53.2%* | *63.2%* |

**Mənbə**: *https://www.cottoninc.com/market-data/monthly-economic-newsletter/*

➢ **2022-ci ilin son üç ayında pambığın dünya bazarı qiyməti demək olar ki, dəyişməz olaraq qalmışdır. Dekabr ayında pambığın 1 kiloqramının qiyməti əvvəlki aya nisbətən cüzi azalaraq azalaraq 2.22 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: [https://www.worldbank.org/en/research/commodity-markets#1](https://www.worldbank.org/en/research/commodity-markets#1)

## Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin dekabr ayında dünya bazarında xam ipəyin qiyməti əvvəlki aya nisbətən 2.3% artaraq 61.1 min ABŞ dolları/ton səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html

# Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin dekabr ayında dünya bazarında quru baramanın qiyməti əvvəlki aya nisbətən 2.7% artaraq tona 20.8 min ABŞ dolları olmuşdur.**







**Mənbə:** [http://www.sunsirs.com/uk/sdetail-month--.html](http://www.sunsirs.com/uk/sdetail-month--.html)

## Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin mart ayından azalma tendendesiyası müşahidə edilən günəbaxan yağının qiyməti, oktyabr ayında nisbətən artsa da növbəti aylarda yenidən azalmışdır. Dekabr ayında qiymət əvvəlki aya nisbətən 7.0% azalaraq 1244 ABŞ dolları/ton olmuşdur.**







**Mənbə:** *https://www.fas.usda.gov/data/oilseeds-world-markets-and-trade*

# Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin dekabr ayında zeytun yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən İtaliya bazarında 8.6%, İspaniya bazarında 13.9%, Yunanıstan bazarında isə 11.5% artmaqla müvafiq olaraq 6383, 5563 və 4931 ABŞ dolları təşkil etmişdir.**







**Mənbə:** *[https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html](https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html)*

## Çayın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin sentyabr ayından çayın qiymətində başlayan azalma dekabr ayında da davam etmişdir. Dekabr ayında çayın 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki aya nisbətən 3.9% azalaraq 2.9 ABŞ dolları səviyyəsinə düşmüşdür.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin noyabr ayında şəkərin dünya bazarı qiymətindəki artım dekabr ayında da davam etmişdir. Dekabr ayında şəkərin qiyməti əvvəlki aya nisbətən 2.4% artaraq 0.42 ABŞ dolları/kq səviyyəsinə yüksəlmişdir.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Soya qiymətlərində 2022-ci ilin ortalarından başlayan azalma noyabr ayında artım ilə əvəz olunmuşdur. Dekabr ayında isə əvvəlki aya nisbətən cüzi azalaraq 646 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ Son 8 ayda mal ətinin qiymətində müşahidə olunan azalma trendi dekabr ayında da davam etmişdir. Dekabr ayında mal ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki aya nisbətən 6.3% azalaraq 4.9 ABŞ dolları səviyyəsinə düşmüşdür.







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **Qoyun ətinin qiymətində noyabr ayında müşahidə olunan artım dekabr ayında da davam etmişdir. Avropa bazarında bu ətin 1 kiloqramının qiyməti ötən aya nisbətən 6.4% artaraq 7.93 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html

## Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

- **2022-ci ilin dekabr ayında donuz ətinin 1 kiloqramının Avropa bazarı qiyməti əvvəlki aya nisbətən 6.3% artaraq 2.2 ABŞ dolları olmuşdur.**







**Mənbə:** *https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html*

# Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin dekabr ayında quş ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki aya nəzərən sabit qalıb, 3.31 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: https://www.worldbank.org/en/research/commodity-markets#1

## Südün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin noyabr ayında əvvəlki ayla müqayisədə süd xammalının 1 tonunun fermadan satış qiyməti ABŞ-da 1.2% azalmaqla 565 ABŞ dolları, Avropa İttifaqında 5.9% və Yeni Zelandiyada 3.8% artmaqla müvafiq olaraq 590 və 415 ABŞ dolları olmuşdur.**







**Mənbə**: https://www.clal.it/en/index.php

➢ **Quru südün 1 tonunun qiyməti 2022-ci ilin dekabr ayında əvvəlki ayla müqayisədə ABŞ-da 2.2%, Avropa İttifaqında isə 1.3% azalaraq müvafiq olaraq 5280 və 4467 ABŞ dolları olmuşdur.**







**Mənbə**: https://www.clal.it/en/index.php

# Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Dekabr ayında kalium gübrəsinin qiyməti əvvəlki aya nisbətən sabit qalmış, fosfor və azot gübrələrinin qiyməti isə müvafiq olaraq 6.5% və 11.8% azalmışdır.**

**Son 1 il ərzində gübrənin növlər üzrə dünya bazarında qiyməti, ABŞ dolları/ton**




**2020-2022-ci illər, 2021-ci ilin dördüncü rübü və 2022-ci ilin dörd rübü ərzində gübrənin növlər üzrə dünya bazarında qiyməti, ABŞ dolları/ton**




**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets

**Əlaqə:**

(+994 12) 599-08-88
www.atm.gov.az
info@atm.gov.az
Nizami küçəsi, 92
AZ 1010 Bakı, Azərbaycan

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ